مفاتيح الغيب

# Qeybin açarları


Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu




Azərbaycan dili

اللغة الأذرية


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

## *Qeyb elmi Allahın ﷻ Özündə gizli saxladığı məsələlər arasındadır.*

Qeybi, onun keçmişini, indisini və gələcəyini Allahdan ﷻ başqası bilməz.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿قُل لَّا يَعۡلَمُ مَن فِي ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ ٱلۡغَيۡبَ إِلَّا ٱللَّهُۚ وَمَا يَشۡعُرُونَ أَيَّانَ يُبۡعَثُونَ ٦٥﴾ [النَّمل : ٦٥]

"De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz. Onlar nə zaman diriləcəklərini belə bilmirlər."[1]

Amma Allah ﷻ qullarından bəzilərinə istədiyi qeyb elmini bildirir:

- Necə ki, Peyğəmbərinə ﷺ əvvəlki bəzi peyğəmbərlərin əhvalatlarını bildirdi.
- Eləcə də, qiyamətin əlamətlərini və gələcəkdə baş verəcək digər böyük məsələləri ona bildirdi.

Allah ﷻ buyurur:

[1] ən-Nəml surəsi, 65-ci ayə

قال تعالى: ﴿عَٰلِمُ ٱلۡغَيۡبِ فَلَا يُظۡهِرُ عَلَىٰ غَيۡبِهِۦٓ أَحَدًا ٢٦ إِلَّا مَنِ ٱرۡتَضَىٰ مِن رَّسُولٖ فَإِنَّهُۥ
يَسۡلُكُ مِنۢ بَيۡنِ يَدَيۡهِ وَمِنۡ خَلۡفِهِۦ رَصَدٗا ٢٧ لِّيَعۡلَمَ أَن قَدۡ أَبۡلَغُواْ رِسَٰلَٰتِ رَبِّهِمۡ وَأَحَاطَ بِمَا
لَدَيۡهِمۡ وَأَحۡصَىٰ كُلَّ شَيۡءٍ عَدَدَۢا ٢٨﴾ [الجن : ٢٦ - ٢٨]

"O, qeybi Biləndir və Öz qeybini heç kəsə açmaz; razı qaldığı elçidən başqa. Həqiqətən, O, onların önündə və arxasında gözətçilər qoyur ki, (hər kəs) onların, Rəbbinin göndərdiklərini necə təbliğ etdiyini bilsin. (Allah) onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır"."[2]

Qeybin beş əsas açarı vardır ki, Allah ﷻ bu açarları özünə xaslaşdırmış və onun elmini bütün məxluqlardan gizlətmişdir.

1. Qiyamətin nə zaman qopacağını Allahdan ﷻ başqa kimsə bilməz.
2. Yağışın yağacağını da. Onun nə vaxt yağacağını, hara yağacağını, nə qədər yağacağını da Allahdan ﷻ başqa heç kim bilməz.
3. Bətnlərdə olanlar haqqında geniş və təfərrüatlı biliyi də Allahdan ﷻ başqa heç kəs bilməz.

Bətindəkiləri yaradan Odur. O, cinsini, ruzisini, əcəlini və əməlini xöşbəxt və ya bədbəxt olduğunu biləndir.

---

[2] əl-Cinn surəsi, 26- 28-ci ayə

4. Nəfslərin sabah (xeyir və ya şər) nə qazanacağını, ruzisinin az və ya çox olmasını Allahdan ﷻ başqa heç kəs bilməz.
5. Nəfsin hansı torpağda əcəli yetişəcəyini və ömürlərinin harada bitəcəyini yalnız Allahdan ﷻ başqa heç kim bilməz.

Həkimin və ya meteoroloqun hələ açıqlanmamış və ya baş verməmiş məsələlər haqqında məlumat verdikləri, məsələn, döllərin proqnozu və küləyin əsməsi, yağışın yağması, günəş və ya ay tutulması haqqında məlumat yəqinliyə deyil, fərziyyəyə əsaslanır. Doğru da yanlış da olma ehtimalı var.[3]

Allahın ﷻ bu və digər məsələlər haqqında elminə gəlincə, o, şübhəyə və səhvə yol verməyən reallığa uyğun olan, qəti və ətraflı bir elmdir.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿إِنَّ ٱللَّهَ عِندَهُۥ عِلۡمُ ٱلسَّاعَةِ وَيُنَزِّلُ ٱلۡغَيۡثَ وَيَعۡلَمُ مَا فِي ٱلۡأَرۡحَامِۖ وَمَا تَدۡرِي
نَفۡسٞ مَّاذَا تَكۡسِبُ غَدٗاۖ وَمَا تَدۡرِي نَفۡسُۢ بِأَيِّ أَرۡضٖ تَمُوتُۚ إِنَّ ٱللَّهَ عَلِيمٌ خَبِيرُۢ ٣٤﴾

"Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır."[4]

---

[3] Fətava ləcnə daimə 8/323
[4] Loğman surəsi, 34-cü ayə